**Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)**

# “PORTFOLİO”

**fənni üzrəİŞÇİ  TƏDRİS PROQRAMI**

**(Sillabus)**

**Fənnin təsviri**

Portfolio bir mütəxəssis tərəfindən lazimi qaydada tərtib edilmiş layihələr, yaradıcı ideyalar, eskizlər, şəkil və fotoşəkillər, sifarişlər toplusudur.

Portfolio - işin və təcrübənin vizual nümunələri olan, insanın yaradıcılıq potensialını ortaya qoyan rezyume analoqunun bir növüdür.

Portfolionun hazırlanmasında vacib şərt onu professional səviyyədə yaradıb, eksklyuzivlik və təcrübəni nümayiş etdirməkdir. Portfolio öz fəaliyyətimizin nəticələrini orijinal qiymətləndirməmetoduna əsaslanan müasir bir innovativ texnologiyadır.

**Fənnin məqsədi və vəzifələri**

"Portfolio" fənninin tədrisinin əsas məqsədi tələbələrə tədris prosesi müddətində aldıqları baza təhsilin nəticəsi kimi əldə olunmuş bilik və bacarıqlar əsasında portfolionun hazırlanma qaydalarını, toplunun yığılma prosesi ardıcıllığını, işlənilən eskizlərin qurulma qayda və qanunlarının tətbiqində nəzərdə tutulan məsələlərin hərtərəfli düşünülmüş həllini öyrətmək və onları savadlı mütəxəssis kimi yetişdirməkdən ibarətdir.

**Fənnin tədris metodologiyası**

Portfolio praktikaya yönəlmiş, təhsildə aktiv yanaşmanın vacib bir elementidir. Portfolio bir məlumat toplusudur.

Bu fənnin tədrisi prosesində bu qovluğu toplamağın mahiyyəti, tədris prosesi və təhsil fəaliyyətinin nəticəsi haqqında məlumat toplamaq və təhlil etmək üsullarından istifadə edilir. Portfolio tələbə üçün bir növ tədris fəaliyyətinin təşkilatçısıdır, müəllim üçün isə tələbəni qiymətləndirmə vasitəsidir. Bu təhsilin modernləşdirilməsi üsuludur.

Bundan əlavə tələbələr verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

**Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

"Portfolio" fənni tədris olunub qurtardıqdan sonra tələbələr dizayn sahəsində lazım olan mühüm təcrübi biliklər, yüksək bədiiliyə malik eskizlərin tərtib etmək təcrübəsinə yiyələnəcəklər. Həmçinin onlar bu fənnin tədrisi nəticəsində gələcəkdə mütəxəssis kimi iş fəaliyyyətinə başlayarkən portfolionın hazırlanma qaydalarını öyrənəcəklər.

**Bacarmalıdırlar:**

Hər bir dizayner fitri istedadı, təcrübəsi, müşahidəçilik qabiliyyəti sayəsində yaratdığı layihələrini, eskizlərini, yeni ideyalarını bir toplu şəklində yığıb nümayiş etməyi bacarmalıdır.

**Prerekvizitlər**

Yoxdur.

**Fənnin məşğələ mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı məşğələ mövzuları təqdim ediləcək:

1. Ornamental kompozisiyanın rənglə işlənməsi. **1-ci mərhələ**

2. Ornamental kompozisiyanın rənglə işlənməsi. **2-ci mərhələ**
3. Heyvanat və bitki aləminin stilizə edilmiş rəsmi. **1-ci mərhələ**
4. Heyvanat və bitki aləminin stilizə edilmiş rəsmi. **2-ci mərhələ**
5. Stilizə edilmiş sərbəst kompozisiyanın rəsmi. **1-ci mərhələ**
6. Stilizə edilmiş sərbəst kompozisiyanın rəsmi. **2-ci mərhələ**
7. Dekorativ ağac və güllərin kompozisiyası. **1-ci mərhələ**
8. Dekorativ ağac və güllərin kompozisiyası. **2-ci mərhələ**
9. Dekorativ natürmortun rəsmi. **1-ci mərhələ**
10. Dekorativ natürmortun rəsmi. **2-ci mərhələ**
11. Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsi. **1-ci mərhələ**
12. Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsi. **2-ci mərhələ**
13. Mənzərə rəsminin çəkilməsi. 1-ci mərhələ. **1-ci mərhələ**
14. Mənzərə rəsminin çəkilməsi. 1-ci mərhələ. **2-ci mərhələ**
15. Sərbəst mövzuda kompozisiyanın işlənməsi. **1-ci mərhələ**
16. Sərbəst mövzuda kompozisiyanın işlənməsi. **2-ci mərhələ**
17. Keramik qab üzərində kompozisiyanın işlənməsi. **1-ci mərhələ**
18. Keramik qab üzərində kompozisiyanın işlənməsi. **2-ci mərhələ**
19. Qabların dekorativ bəzədilməsi (muncuq, biser, dekupaj və s.). **1-ci mərhələ**
20. Qabların dekorativ bəzədilməsi (muncuq, biser, dekupaj və s.). **2-ci mərhələ**
21. Parçanın bədii tərtibatı (batik). **1-ci mərhələ**
22. Parçanın bədii tərtibatı (batik). **2-ci mərhələ**
23. Parçanın dekorativ bəzədilməsi (tikmə, muncuq, biser, pilə, lentlər və s.). **1-ci mərhələ**
24. Parçanın dekorativ bəzədilməsi (tikmə, muncuq, biser, pilə, lentlər və s.). **2-ci mərhələ**
25. Qadın, kişi və yaxud uşaq geyimlərinin layihələndirilməsi. **1-ci mərhələ**
26. Qadın, kişi və yaxud uşaq geyimlərinin layihələndirilməsi. **2-ci mərhələ**
27. Ziyafət qadın geyimlərinin dekorativ işlənməsi. **1-ci mərhələ**
28. Ziyafət qadın geyimlərinin dekorativ işlənməsi. **2-ci mərhələ**
29. Baş geyimlərinin və ayaqqabıların dizaynı.
30. İşlərə baxış və ümumi analizlər

**Fənnin mühazirə mətnləri**

Fənnin mühazirə mətnləri yoxdur.

**Əsas dərslik və dərs vəsaitləri**


31. Ростовцев Н.Н. Учебный рисунок, Москва, Изд. Просвещение, 1989
32. Шембель А. Ф. Основы рисунка. Изд. Высшая школа, 1994
33. Хансен Б. Роспись по шелку для начинающих. М., Внешсигма, 1997
34. Xəlilov Mirteyyub. Kompozisiya üzrə medodik tövsiyyə, Bakı, Gənclik, 1999
35. Məmmədov S.İ. Təsviri sənətdə rəsm, Bakı, Çaşıoğlu, 1999
36. Ляукина М. Бисер: Основы художественного ремесла. – М, Аст-пресс, 1999
37. Б.С.Сакулин и. др. «Конструирование мужской и женской одежды» М.1999.
38. Богемская К. История жанров. Пейзаж: Альбом. – Москва , Аст-Пресс, 2003
39. Обухов В.М. История жанров. Натюрморт: Альбом. – Москва, Аст-Пресс, 2003
40. Гильман Р.А. Художественная роспись тканей: Учебное пособие для студентов вузов. – изд. центр ВЛАДОС. 2005. — 159 с, 32 с. ил.
41. Спецрисунок и художественная графика. Москва, ACADEMA, 2006
42. Солод Л.Е. Цветочные чудо-коллажи: Уникальные украшения для дома и дачи. – М., ЭКСМО, 2006
43. Г.Альберт. Рисовать это просто. Москва, 2009

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | Ornamental kompozisiyanın rənglə işlənməsi. **1-ci mərhələ** | Ornamental kompozisiyanın eskizinin çəkilməsi və rənglənməsi | 2 |
| **2** | Ornamental kompozisiyanın rənglə işlənməsi. **2-ci mərhələ** | Ornamental kompozisiyanın rənglənməsinin tamamlanması | 2 |
| **3** | Heyvanat və bitki aləminin stilizə edilmiş rəsmi. **1-ci mərhələ** | Heyvanat və bitki aləminin stilizə edilmiş rəsminin eskizinin qurulması | 2 |
| **4** | Heyvanat və bitki aləminin stilizə edilmiş rəsmi. **2-ci mərhələ** | Heyvanat və bitki aləminin stilizəedilmiş rəsminin qurulmasının tamamlandırılması | 2 |
| **5** | Stilizə edilmiş sərbəst kompozisi-yanın rəsmi. **1-ci mərhələ** | Sərbəst mövzuda stilizə edilmiş kompozisiyanın eskizinin çəkilməsi | 2 |
| **6** | Stilizə edilmiş sərbəst kompozisi-yanın rəsmi. **2-ci mərhələ** | Stilizə edilmiş sərbəst kompozisiyanın tamamlandırılması | 2 |
| **7** | Dekorativ ağac və güllərin kom-pozisiyası. **1-ci mərhələ** | Dekorativ ağac və güllərin eskizinin çəkilməsi | 5 |
| **8** | Dekorativ ağac və güllərin kompozisiyası. **2-ci mərhələ** | Dekorativ ağac və güllərin eskizinin tamamlandırılması | 5 |
| **9** | Dekorativ natürmortun rəsmi. **1-ci mərhələ** | Dekorativ natürmortun eskizininqurulması | 9 |
| **10** | Dekorativ natürmortun rəsmi. **2-ci mərhələ** | Dekorativ natürmortuntamamlandırılması | 9 |
| **11** | Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsi. **1-ci mərhələ** | Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsinin ilkin variantı | 12 |
| **12** | Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsi. **2-ci mərhələ** | Kollaj texnikasında müxtəlif mövzuda kompozisiyanın işlənməsinin tamamlandırılması | 12 |
| **13** | Mənzərə rəsminin çəkilməsi. **1-ci mərhələ** | Mənzərə rəsminin eskizinin qurulması | 10 |
| **14** | Mənzərə rəsminin çəkilməsi. **2-ci mərhələ** | Mənzərə rəsminin tamamlandırılması | 10 |
| **15** | Sərbəst mövzuda kompozisiyanın işlənməsi. **1-ci mərhələ** | Sərbəst mövzuda kompozisiyanın eskizinin qurulması | 5 |
| **16** | Sərbəst mövzuda kompozisiyanın işlənməsi. **2-ci mərhələ** | Sərbəst mövzuda kompozisiyanın işlənib tamamlandırılması | 5 |
| **17** | Keramik qab üzərində kompozi-siyanın işlənməsi. **1-ci mərhələ** | Keramik qab üzərində kompozisiyanın eskizinin qurulması | 12 |
| **18** | Keramik qab üzərində kompozi-siyanın işlənməsi. **2-ci mərhələ** | Keramik qab üzərində işin tamamlandırılması | 12 |
| **19** | Qabların dekorativ bəzədilməsi (muncuq, biser, dekupaj və s.). **1-ci mərhələ** | Qabların dekorativ bəzədilməsinin ilkin mərhələsi | 12 |
| **20** | Qabların dekorativ bəzədilməsi (muncuq, biser, dekupaj və s.). **2-ci mərhələ** | Qabların dekorativ bəzədilməsinin tamamlandırılması | 12 |

| | | | |
|---|---|---|---|
| **21** | Parçanın bədii tərtibatı (batik). **1-ci mərhələ** | Parçanın üzərində eskizin qurulması | 10 |
| **22** | Parçanın bədii tərtibatı (batik). **2-ci mərhələ** | Parçanın bədii tərtibatının tamamlandırılması | 10 |
| **23** | Parçanın dekorativ bəzədilməsi (tikmə, muncuq, biser, pilə, lentlər və s.). **1-ci mərhələ** | Parçanın üzərində eskizin qurulması | 6 |
| **24** | Parçanın dekorativ bəzədilməsi (tikmə, muncuq, biser, pilə, lentlər və s.). **2-ci mərhələ** | Parçanın dekorativ bəzədilməsinin tamamlandırılması | 6 |
| **25** | Qadın, kişi və yaxud uşaq ge-yimlərinin layihələndirilməsi.**1-ci mərhələ** | Qadın, kişi və yaxud uşaq geyimeskizinin qurulması | 7 |
| **26** | Qadın, kişi və yaxud uşaq geyim-lərinin layihələndirilməsi. **2-ci mərhələ** | Qadın, kişi və yaxud uşaq geyimlərinin layihələndirilməsinin tamamlandırılması | 7 |
| **27** | Ziyafət qadın geyimlərinin dekorativ işlənməsi. **1-ci mərhələ** | Ziyafət qadın geyimlərinin eskizinin qurulması | 7 |
| **28** | Ziyafət qadın geyimlərinin dekorativ işlənməsi. **2-ci mərhələ** | Ziyafət qadın geyimlərinin dekorativ işlənməsi | 7 |
| **29** | Baş geyimlərinin və ayaqqabıların dizaynı. | Baş geyimləri və ayaqqabılarıneskizinin qurulması | 7 |
| **30** | İşlərə baxış və ümumi analizlər | İşlərə baxış | |
| | **Yekun imtahan** | | |

**Seminar-məşğələlə dərslərin xüsusiyyəti**

Dizayn ixtisasıda ***qabiliyyət tələb edən fənlər*** üzrə cari qiymətləndirmədə - 50 balın 20 balı tələbələrin aktivlik balı (seminar məşğələləri zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay ərzində 2 iş olmaqla) üzrə Əlavə 3-də qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Bu halda əlavə bal almaq istəyən tələbələr tərəfindən 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir. Aralıq qiymətləndirmə üzrə 50 bal - isə qabiliyyət imtahanı kimi 120 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə İmtahan Mərkəzi tərəfindən daxil edilir.

**Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**Sərbəst işlər: tələblər və qiymətləndirmə**

**Dərsə davamiyyət**

Bakalavriat səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Fərdi iş tapşırıqlarına qoyulan qaydalar**

Qabiliyyət tələb edən fənlər (dizayn ixtisasında) üzrə fərdi iştapşırıqlarının yerinə yetirilməsi

Tələbələrə sillabus üzrə mövzulara uyğun olaraq 6 fərdi iş tapşırığı verilir. Verilən tapşırıqların işləmə qaydaları aşağıdakı kimi müəyyən edilir:

1. Kompanovka - əşyaların və yaxud kompozisiyanın vərəqdə düzgün yerləşdirilməklə çəkilməsi.
2. Proporsiyaların düzgün təyin edilməsi.
3. Köməkçi xətlərdən istifadə edərək formanın qurulması.
4. Perspektiva qanunlarına uyğun tapşırığın konstruktiv həlli.
5. Kompozisiya qanunlarına riayət edərək tapşırığın tam olaraq konstruktiv həlli.
6. Rəng palitrasının müəyyənləşdirilməsi.
7. Predmetlərin formasının, həcminin və yaxud hər hansı bir kompozisiyanın rənglə işlənməsi:

7.1. Natürmortun rəng həlli:

7.1.1. Əsas rəng tonlarının verilməsi;

7.1.2. Şəxsi və düşən kölgələrin verilməsi;

7.1.3. Predmetlərin formasının işıq-kölgə və rənglə modelləşdirilməsi;

7.1.4. Predmetlərin rənglə fakturasının verilməsi;

7.1.5. Fəzanın rənglə işlənilməsi;

7.1.6. Natürmortun ümumiləşdirilməsi;

7.2. Kompozisiyanın (ornamental, tematik, qrafik, dekorativ və s.) rəng həlli:

7.2.1. Əsas rəng tonlarının verilməsi;

7.2.2. Ornamental kompozisiyaların tapşırıqdan asılı olaraq simmetriyaqanunlarına riayət edərək xromatik və yaxud axromatk çalarlarla işlənilməsi;

7.2.3. Dekorativ tapşırıqların xromatik çalarlarla işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.2.4. Qrafik işlərin xromatik və yaxud axromatk çalarlarla qrafik üslubda işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.2.5. Tematik tapşırıqların qrizayl (monoxrom) və yaxud xromatik çalarlarla işlənilməsi;

7.2.6. Tapşırığın ümumiləşdirilməsi.

Tapşırıqların yerinə yetirilməsində istifadə olunan material və texnikalar:

1. A3, A2 formatında kağız və yaxud kətan.
2. Sadə qələm, rəngli qələm, rəngli gel qələm, flomaster, rəngli marker, pastel, kömür, sangina, sulu (akvarel, akril, quaş və s.) boya, yağlı boya.

Qarışıq texnikadan istifadə etməyə icazə verilir.

**Aralıq qiymətləndirilmə**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları Aralıq qiymətləndirmə üzrə 50 bal qabiliyyət imtahanı kimi 180 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir. Tələbə iştirak etmədikdə "0" (sıfır) bal qeyd olunur. Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya komissiyasına müraciət edə bilər.

**Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə (final) | 50 | 50 % |
| Seminar (məşğələ) dərslərin nəticələrinə görə Aktivlik | 20 | 20 % |
| Tələbələrin fərdi işin qiymətləndirilməsinə görə | 30 | 30% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – F
51-60 bal -"qənaətbəxş" – E
61-70 bal - "kafi" – D
71-80 bal - "yaxşı" – C
81-90 bal - "çox yaxşı" – B
91-100 bal - "əla" – A

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.